

ORUCLA BAĞLI FİQHİ MƏSƏLƏLƏR

Hikmət Toxumu
2016

بسم الله الرحمن الرحيم

ORUCLA BAĞLI FİQHİ MƏSƏLƏLƏR

Tərcümə edən və toplayan:
Şahin Əbu Fateh Qafanlı

Hikmət Toxumu
2016

ORUC

Orucun lüğət mənası: Özünü tutmaq deməkdir.

Orucun şəri (şəriətdə) mənası: İnsanın niyyət edərək dan yeri söküləndən günəş batana qədər yeməkdən, içməkdən və digər orucu pozan şeylərdən özünü uzaq tutmasıdır.

Rükunları:[1]

Orucun istilahi tərifindən bizə aydın olur ki, iki əsas rüknü vardır. Bunlar belədir:

1-İnsanın dan yeri söküləndən günəş batana qədər yeməkdən, içməkdən və digər orucu pozan şeylərdən imtina etməsidir. Bunun dəlili Allahu Təalənin bu sözüdür: **"Artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için; sonra gecəyə qədər orucunuzu tamamlayın."** [Bəqərə 187]

---

[1] **Rükn:** bir şeyin varlığı öz varlığına bağlı olan və onun quruluşundan bir hissə təşkil edən ünsürdür. Məsələn, namaz üçün Quran tilavəti (Qurandan bir miqdar oxumaq) namazın rüknüdür. Çünki, Şariinin (Qanun qoyanın) nəzərində namazın meydana gəlmiş sayılması, tilavətin varlığına bağlıdır. Həm də tilavət namazın quruluşundan bir parçadır. Burada rükn ilə şərti qarışdırmamaq lazımdır. Şərt, bir şeyin varlığı öz varlığına bağlı olmaqla yanaşı, onun quruluşundan bir parça təşkil etməyən iş və ya xüsusiyyətdir. Məsələn, namaz üçün dəstəmaz şərtdir. Dəstəmaz olmayınca etibarlı bir namazın varlığından söz edilməz. Bununla bərabər dəstəmaz, namazın mahiyyətindən bir parça təşkil etmir. Onun xaricində qalır.

Rükn İlə Şərt Arasındakı Fərq: Yuxarıdakı açıqlamadan aydın olduğu kimi, rükn və şərt bu xüsusiyyətdə birləşir: Hər ikisinin də yoxluğu özü ilə əlaqəsi olan hökmün yoxluğunu tələb edir. Ayrıldıqları nöqtə isə budur: Rükn, bağlı olduğu hökmün mahiyyətindən bir parçadır, şərt isə belə deyil, o hökmün mahiyyətinin xaricində qalır.

Ağ iplə qara ipdən məqsəd, gündüzün bəyazlığı və gecənin qaranlığıdır.

2-Niyyət: Oruclu olan kəs orucu pozan şeylərdən imtina edərək Allaha ibadət etməyi qəsd etməlidir.

Niyyət etməklə, ibadət üçün qəsd edilən əməllər digər əməllərdən ayrılır.

Həmçinin niyyətə görə ibadətlər də bir-birindən ayrılır. Oruc tutan kəs bununla ya ramazan orucunu qəsd edər, ya da digər oruclardan birini qəsd edər. Bu rüknün dəlili Allah Rəsulunun ﷺ bu sözüdür: **"Həqiqətən əməllər niyyətlərə görədir. Hər kəs etdiyi niyyətinin qarşılığını görəcəkdir..."** [2]

Allahu Təalə Ramazan ayının orucunu bu ayə ilə fərz[3] etmişdir: **"Ey iman edənlər! Oruc sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"** [Bəqərə 183]

Oruc, İslamın beş şərtindən biridir. Abdullah ibn Ömərdən ﵁ belə dediyi rəvayət edilir: Allah Rəsulu belə buyurmuşdur: **"İslam beş şey üzərində qurulmuşdur. Allahdan başqa haqq ilah olmadığına və Muhamməmdin Allahın Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat**

[2] Buxari, hədis 1; Müslim, hədis 1907;

[3] **Tərifi:** Şarinin (qanun qoyanın) edilməsini qəti və bağlayıcı tərzdə istədiyi, feldir. Tərk edənin ağır cəzaya məruz qalacağı fellərdən olmasından da fərz olduğu anlaşılır. Məsələn, namaz qılmanın, zəkat vermənin, əhdlərə sadiq qalmanın istənib, bunları tərk edənin ağır cəzaya məruz qalmasına səbəb olduğunun bildirilməsi kimi.

Hökmü: Mütləq yerinə yetirilməsi lazımdır. Yerinə yetirən savab qazanar. Tərk edən cəzalandırılar.

Alimlərin çoxuna (cumhura) görə vacib və fərz məna və hökm olaraq eynidirlər.

vermək, ramazan orucunu tutmaq və gücü çatırsa beyti həcc etmək.” [4]

Ramazan orucunun vacib olması üzərində ümmət icma etmişdir.

ORUCUN NÖVLƏRİ

Oruc iki növdür. Fərz və nafilə oruc.

Fərz olan oruc üç növə ayrılır:

1-Ramazan orucu.

2-Kəffarə orucu: Bilmədən birisini öldürdükdə iki ay ard-arda oruc tutmaq kimi.

3-Nəzir orucu: Kim oruc tutacağına dair söz verərsə ona oruc tutmaq vacib olar.

Ramazan orucunun vacib olma şərtləri

1-İslam: Kafirin orucu səhih deyil. Çünki, oruc ibadətdir və kafirin ibadəti də səhih deyildir. Kafir kəs Müsəlman olarsa əvvəlki orucları qəza etməsinə gərək yoxdur.

2-Həddi-buluğ: Həddi-buluğ çağına gəlməyənlər üçün oruc vacib deyildir. Bu da Allah Rəsulunun ﷺ bu hədisinə əsasəndir: **“Üç nəfərdən qələm qaldırılmışdır. Bu üç nəfər arasında həddi-buluğa çatmamış uşağı da saydı.”** [5]

Lakin, buluğ çağına çatmamış uşaq oruc tutarsa səhih olar. Həmçinin, uşağın az yaşlarından oruca vərdiş etməsi üçün vəlisinin ona orucu əmr etməsi lazımdır.

3-Ağıl: Dəliyə və əqli problemi olana oruc vacib deyil. Bu da yenə Allah Rəsulunun ﷺ bu hədisinə əsasəndir: **“Qələm**

[4] Buxari, hədis 8; Müslim, hədis 16;

[5] Əhməd ibn Hənbəl, hədis 1183; Əbu Davud, hədis 4401;

üç nədərdən qaldırılmışdır.” Burada ağlı başına gələnə qədər dəlini də saymışdır.

4-Güc yetirmə: Kim orucu tutmağa gücü çatmayacaq halda xəstə və ya qocadırsa, ona oruc tutmaq vacib olmaz. Lakin tutarsa orucu səhih olar. Bu, Allahu Təalənin bu sözünə əsasəndir: **“Artıq kim xəstə ya da səfərdə olarsa tutmadığı günlərin sayı qədər digər günlərdə tutsun.”** [Bəqərə 185]

5-Qeyri müsafir: Səfərdə olana oruc vacib deyil. Çünki, Allahu Təalə belə buyurur: **“Artıq kim xəstə ya da səfərdə olarsa tutmadığı günlərin sayı qədər digər günlərdə tutsun.”** [Bəqərə 185]

Səfərdə olan kəs tutarsa orucu səhih olar. Səfər zamanı oruc tutmazsa daha sonra səfərdə tutmadığı oruclarını qəza etməlidir.

6-Heyz və nifasdan təmizlənmək: Heyzli və nifaslı qadına oruc vacib deyil. Ona görə ki, onlara oruc tutmaq haramdır.[6] Çünki, Allah Rəsulu ﷺ belə buyurur: **“Qadın heyzli olarkən namaz qılmır, oruc tutmur. Elə deyilmi?...”** [7]

Həmçinin onlara Aişənin رضي الله عنها bu sözünə əsasən qəza etməkləri lazımdır: **“Biz Allah Rəsulunun vaxtında heyz olarkən, tutmadığımız orucları qəza etməklə əmr olunurduq, amma qılmadığımız namazları qəza etməklə əmr olunmurduq.”** [8]

---

[6] **Tərifi:** Şarinin edilməməsini qəti bir formada istədiyi feldir. Bu haramlıq ləfzilə, halalığın olmadığını bildirməklə, feldən çəkinmənin qəti bir vəzifə olduğunu bildirməklə və s. üsullarla bilinər. Harama misal olaraq zina, içki və qumarı göstərə bilərik.
Hökmü: Çəkinən savab qazanar, edən günah qazanar.

[7] Buxari, hədis 304; Müslim, hədis 79;

[8] Buxari, hədis 321; Müslim, hədis 335;

Oruc tutmaq istəyən kəs oruc tutacağı vaxt, ramazan orucu, kəffarə orucu, qəza orucu, və nəzir orucu kimi vacib oruclara gecədən niyyət etməlidir. Hətta, fəcrdən bir dəqiqə əvvəl də olsa. Çünki, Allah Rəsulu ﷺ belə buyurmuşdur: **“Fəcrdən əvvəl oruca niyyət etməyən kəsin orucu keçərsizdir.”** [9]

ORUCU POZAN ŞEYLƏR

1-Qəsdən yemək və içmək: Həmçinin onun hökmündə olan qidalandırıcı iynə və s. kimi şeylər. Belə ki, Allahu Təalə belə buyurur: **“Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için; sonra gecəyə qədər orucunuzu tamamlayın.”** [Bəqərə 187]

Lakin, kim unudaraq yeyər ya da içərsə orucu batil olmaz, o kəs orucunu tamamlayar, qəza etməz. Çünki, Allah Rəsulu ﷺ belə buyurmuşdur: **“Kim oruclu olduğu halda unudaraq yeyər və ya içərsə, orucunu davam etdirsin. Həqiqətən Allah onu yedizdirib, içizdirmişdir”** [10]

2-Cinsi yaxınlıq: Cinsi yaxınlıq etmək orucu pozar. Kim oruclu olduğu halda cinsi yaxınlıq edərsə orucu pozular. Tövbə və istiğfar etməsi lazımdır. Həmçinin, həmin günün orucunu qəza etməli və kəffarə verməlidir. Kəffarə isə bir kölə azad etməli, əgər bunu edə bilməzsə iki ay fasiləsiz oruc tutmalı, bunu da edə bilməzsə altmış kasıbı doyurmalıdır. Bu, Əbu Hureyradan ﷺ rəvayət edilən hədisə əsasəndir: “Bir nəfər Rəsulullahın ﷺ hüzuruna gələrək: “Həlak oldum ey Allahın Elçisi – dedi. Rəsulullah ﷺ: **“Səni həlak edən nədir?** – deyə soruşdu. O da: “Ramazanda oruclu ikən zövcəmlə yaxınlıq etdim” – deyə cavab verir.

---

[9] Tirmizi, hədis 730; Nəsai hədis 2331; Əbu Davud, hədis 2454; Səhih sənədlə təxric etmişdir;

[10] Buxari, hədis 6669; Müslim, hədis 1155;

Allah Rəsulu ﷺ: **“Bir kölə azad edə bilərsənmi?** – deyə soruşdu. O da: Xeyr, azad edə bilmərəm.” – cavabını verdi. Rəsulullah ﷺ: **“Bəs iki ay ara vermədən oruc tutmağa gücün çatar?”** – deyə soruşdu. O da: “Xeyr, buna gücüm çatmaz” – deyə cavab verdi. Rəsulullah ﷺ: **“Altmış yoxsulu doyura bilərsən?”** – deyə yenə soruşdu...“ [11]

3-Qəsdən qusmaq: Yəni insanın mədəsindəkiləri qəsdən ağzından çıxartmasıdır. Əgər istəmədən qusarsa buna görə qəza və ya kəffarə yoxdur. Çünki, Allah Rəsulu ﷺ belə buyurmuşdur: **“Kim ixtiyarı olmadan qusarsa orucunu qəza etmir. Kim ki, özünü qusdurarsa o orucunu qəza etməlidir.”** [12]

4-Heyz və nifas qanının çıxması: Qadın heyz və nifas qanını görərsə orucu pozular və qəza etməsi ona vacib olar. Çünki, Allah Rəsulu ﷺ qadınlar haqqında belə buyurmuşdur: **“Qadın heyzli olarkən namaz qılmır, oruc tutmur. Elə deyilmi?...”** [13]

5-İftar etmək niyyəti: Kim oruclu olduğu halda iftar etmə vaxtından əvvəl iftar etməyə niyyət edərsə, iftar etməyə bir şey tapmasa da belə orucu pozular. Çünki, niyyət orucun rüknlarındandır. İftar etməyi qəsd edərək və qəsdli olaraq bu niyyəti pozarsa orucu pozular.

ORUCUN MÜSTƏHƏBLƏRİ[14]

Oruc tutan kəs orucunda aşağıdakılara diqqət etməsi müstəhəbdir:

---

[11] Buxari, hədis 1936; Müslim, hədis 1111;

[12] Əbu Davud, hədis 2380; Tirmizi, hədis 720; Səhihdir;

[13] Buxari, hədis 304; Müslim, hədis 79;

[14] **Tərifi:** Şarinin (Qanun qoyanın) edilməsini qəti şəkildə istəmədiyi fellər. Felin yerinə yetirilməsinin istəndiyi nas qəti olar, amma onu qətilik mərtəbəsindən endirəcək başqa bir dəlil və ya hüququn ana prinsiplərindən biri olarsa və yaxud da, tərk edənin

1-Səhur: Allah Rəsulu ﷺ belə buyurmuşdur: **"Səhur edin, həqiqətən səhur etməkdə bərəkət vardır."** [15]

Səhur az ya da çox yeməklə və yaxud bir qurtum su ilə də ola bilər.

Səhurun vaxtı gecənin sonundan fəcrin açılmasına qədərdir.

2-Səhuru gecikdirmək: Ənəs ibn Malikdən o da Zeyd ibn Sabitdən ؓ belə rəvayət edir: "Biz Allah Rəsulu ilə birlikdə səhur etdik, sonra Allah Rəsulu birbaşa namaza getdi. Mən ondan soruşdum ki, bəs azanla səhur arasında nə qədər vaxt keçdi? O dedi: **Əlli ayə oxunan müddət."** [16]

3-İftarı tezləşdirmək: Oruc olanın günəş batan kimi iftar açması müstəhəbdir. Çünki, Səhl ibn Səəddən ؓ Allah Rəsulunun ﷺ belə dediyi rəvayət edilir: **"İnsanlar iftarı tezləşdirdikləri təqdirdə xeyir içərisində olacaqlar."** [17]

4-Təzə xurmalarla iftar etmək: Təzə xurma tapa bilməzsə quru xurma ilə iftar edər və tək sayda xurma yeyər. Əgər bunu da tapa bilməzsə su ilə iftarını açar. Çünki, Ənəs ؓ deyir ki, "Allah Rəsulu ﷺ (oruclu olarkən) namazı (məğribi) qılmadan öncə bir neçə yaş xurma ilə orucunu açardı. Əgər yaş xurma olmasaydı onda adi xurma ilə iftar

---

cəzalandırılmayacağı bildirilən bir formada gələrsə bu da məndub sayılar. Borc aldıqda onun yazılması əmri buna misal ola bilər. Məndub kəliməsi bəzən sünnət, müstəhəb və nafilə şəklində də ifadə edilir.

Hökmü: Yerinə yetirən təriflənərək savab qazanar, tərk edən günah qazanmaz. Ümumən bu belədir, lakin bəzi məndublar tərk edildiyi zaman sahibi cəzalandırılmasa belə pislənər və qınanar. Məsələn fəcr (sübh) namazının iki rəkət sünnəti.

[15] Buxari, hədis 1923; Müslim, hədis 1095;

[16] Buxari, hədis 576; Müslim, hədis 1097;

[17] Buxari, hədis 1957; Müslim, hədis 1098;

edərdi. Əgər xurma da olmasaydı o zaman bir neçə qurtum su ilə iftar edərdi.” [18]

5-İftar edərkən və oruclu olarkən dua etmək: Allah Rəsulunun ﷺ bu hədisinə əsasən: **“Üç nəfərin duası rədd edilməz: İftar edənə qədər oruc olanın, ədalətli imamın və məzlumun.”** [19]

ORUCUN MƏKRUHLARI [20]

Bəzi şeylər vardır ki, oruc olanın onları etməsi bəyənilmir. Bu şeylər oruclu olanın orucunu zədələyib savabını azalda bilər. Bunlar:

1-Ağız və burunu mübaliğə etmədən yaxalamaq: Bu, suyun boğazdan daxilə getməsindən ehtiyat edilməsi üçündür. Allah Rəsulu ﷺ belə buyurur: **“Oruclu olmadığın vaxtlar, burunu dərindən təmizlə.”** [21]

2-Bəlğəm udmaq: Çünki, bu mədəyə gedir və zərərlidir.

3-Ehtiyac olmadan yeməyin dadına baxmaq: Məsələn, aşpazdırsa və yeməyin dadına baxmaq məcburiyyətində-dirsə bunda bir bəis yoxdur. Lakin, boğazından aşağı bir şey getməməsinə diqqət yetirməlidir.

NAFİLƏ ORUCLAR

1-Şəvval ayında altı gün: Əyyub əl Ənsari (r.a.) Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: **“Kim Ramazan orucunu**

[18] Əbu Davud, hədis 2356; Tirmizi, hədis 696;

[19] Tirmizi, hədis 3598;

[20] **Tərifi:** Şarinin edilməməsini qəti olmayan bir tərzdə istədiyi feldir. Başqa bir ifadəylə məkruh, edilməməsinin edilməsindən daha yaxşı olduğu feldir. Bu tələb müxtəlif formalarda ola bilər. Malı boş yerə xərcləmək, lazımsız suallar vermək bu qəbildəndir. **Hökmü:** Bu feli edən cəzalandırılmaz, qınanma və tənqidə məruz qala bilər. Tərk edən öyülər, Allah rizası üçün tərk edərsə savab qazanar.

[21] Tirmizi, hədis 788 və səhih saydı;

tutub, sonra əlavə olaraq Şəvval ayından altı gün oruc tutarsa bir il oruc tutmuş kimi sayılar." [22]

2-Həccdə olanlar istisna Ərafa günü orucu: Əbu Qatadə ﵁ deyir ki, Allah Rəsulundan ﷺ Ərafa günü haqqında soruşuldu və cavabında dedi: **"Ərafa gününün orucu, ötən ilin və gələcən ilin günahlarına kəffarə olacağına dair Allahdan ümidim var."** [23]

Həccdə olanın isə Ərafa günü oruc tutması sünnət deyildir. Çünki, Nəbi ﷺ bu gündə insanların ona baxdığı halda iftarını açmışdır. Həccdə olan üçün həmin gündə ibadət və dua edərkən daha güclü olması üçün daha yaxşıdır.

3-Aşura günü orucu: Allah Rəsulundan ﷺ aşura orucu haqqında soruşuldu. Allah Rəsulu ﷺ belə buyurdu: **"Aşura günü tutulan orucun, ötən ilin günahlarına kəffarə olacağını umuram."** [24]

Həmçinin, bir gün əvvəl və bir gün sonra tutmaq da müstəhəbdir. Çünki, Allah Rəsulu ﷺ belə buyurur: **"Əgər gələn ilə qədər yaşasam mütləq doqquzuncu günü də oruc tutacam."** [25]

4-Həftənin birinci və dördüncü günləri oruc tutmaq. Aişədən ﵂ rəvayət edilən bu hədisə əsasən: "Nəbi ﷺ bazar ertəsi və cümə axşamı günü oruclarını səbirsizliklə gözləyərdi." [26]

Həmçinin Allah Rəsulunun ﷺ bu hədisinə əsasən: **"Əməllər Allaha bazar ertəsi və cümə axşamı ərz edilir.**

---

[22] Müslim, hədis 1164;

[23] Müslim, hədis 1162;

[24] Müslim, hədis 1162;

[25] Müslim, hədis 1134;

[26] Əhməd ibn Hənbəl, hədis 24748; Tirmizi, hədis 745, səhihdir;

Mən, əməlimin oruclu olduğum halda ərz edilməsini sevirəm.” [27]

5-Hər aydan üç gün oruc tutmaq. Allah Rəsulu ﷺ Abdullah ibn Amra ؓ dediyi bu sözünə əsasən: **“Hər ay üç gün oruc tut. Çünki, Hər yaxşı işə görə onun on misli qədər savab yazılar. Bu isə il boyu oruc tutmaq deməkdir.”** [28]

Yaxşı olar ki, tutulacaq bu üç gün hicri ayların on üçü, on dördü və on beşi olsun. Əbu Zərr ؓ rəvayət edir ki, Allah Rəsulu ﷺ belə buyurur: **“Ey Əbu Zərr, əgər ayın üç günü oruc tutsan, on üç, on dörd və on beşi oruc tut.”** [29]

6-Günaşırı oruc tutmaq. Allah Rəsulunun ﷺ bu hədisinə əsasən: **“Ən fəzilətli oruc Davudun ؑ orucudur. O bir gün oruc tutar, bir gün iftar edərdi.”** [30]

Bu oruc nafilə orucların ən fəzilətlisidir.

7-Məhərrəm ayında oruc tutmaq. Əbu Hureyranın ؓ rəvayət etdiyi hədisə əsasən: Allah Rəsulu ﷺ belə buyurmuşdur: **“Ramazan ayından sonra ən fəzilətli oruc, Məhərrəm ayında tutulan orucdur. Fərz namazlardan sonra namazların ən fəzilətlisi gecə namazıdır.”** [31]

8-Zilhiccə ayının doqquz günü. Zilhiccə ayının ilk günündən başlayıb doqquzuncu gününə kimidir. O da Ərafa günüdür. Bu isə bu günlərdə əməl etməyin fəzilətinə dair varid olan hədislərin ümumiliyinə əsasəndir. Allah Rəsulu ﷺ belə buyurmuşdur: **“Allah üçün bu on gündə**

[27] Tirmizi, hədis 747; Nəsai, hədis 2358, səhihdir;

[28] Buxari, hədis 1976;

[29] Əhməd ibn Hənbəl, hədis 21350; Nəsai, hədis 2430, həsən sənədlə rəvayət etmişdir;

[30] Buxari, hədis 11314 Müslim, hədis 1159;

[31] Müslim, hədis 1163;

edilən əməllərdən daha böyüyü və daha sevimlisi yoxdur.” [32]

Oruc da saleh əməllərdəndir.

BƏYƏNİLMƏYƏN VƏ HARAM OLAN ORUCLAR

1-Ancaq Rəcəb ayında oruc tutmaq caiz deyil.

Çünki, bu cahiliyyənin adətlərindəndir. Onlar bu ayı müqəddəs hesab edirdilər. Lakin, bu ayı başqa ayla birlidə oruc tutması caizdir. Çünki, bu ayda başqa ayla birlikdə oruc tutduqda bu ayı xüsusiləşdirmiş olmaz. Haraşə ibn Hurrə ﵁ rəvayət edir: “Ömər ibn Xəttabın ﵁ Rəcəb ayında oruc tutanların, əllərini yeməyə uzadana qədər, əllərinə vurduğunu gördüm. Onlara belə deyirdi: “Yeyin! Bu ayı ancaq cahiliyyədəkilər təzim edərdilər.” [33]

2-Ancaq cümə günləri oruc tutmaq.

Allah Rəsulunun ﷺ bu hədisinə əsasən: **“Heç kəs təkcə cümə gününü oruc tutmasın. Onunla bərabər bir gün əvvəl və ya bir gün sonra oruc tutsun.”** [34]

3-Şəkk günü oruc tutulması məkruhdur.

Şaban ayının otuzuncu günü əgər göy üzündə hilalın görünməsinə əngəl olacaq bir şey varsa şəkk günü sayılır. Lakin göy üzü açıqdırsa o gün şəkk günü sayılmaz. Ammar ibn Yasir ﵁ demişdir: “Kim şəkk günü oruc tutarsa Əbul Qasimə (Allah Rəsuluna ﷺ) asi olar.” [35]

---

[32] Tirmizi, hədis 757;

[33] İbn Əbi Şeybə, hədis 9758;

[34] Buxari, hədis 1985; Müslim, hədis 1144;

[35] Nəsai, hədis 2188; Buxari, 3/27;

4-İki bayram günü oruc tutmaq haramdır.

Əbu Səidin ﵁ bu hədisinə əsasən: "Nəbi ﷺ Fitr (Ramazan bayramı) və Nahr (Qurban bayramı) günü oruc tutmağı qadağan etdi." [36]

5-Təşriq günləri oruc tutmaq məkruhdur.

Bu günlər, bayram günündən sonrakı üç gündür. On bir, on iki və on üçüncü günlərdir. Allah Rəsulu ﷺ belə buyurmuşdur: **"(Təşriq günləri) yeyib-içmə və Allahı zikr etmə günləridir."** [37]

Həmçinin Allah Rəsulunun bu hədisinə əsasən: "Ərafa günü, bayram günü və təşriq günləri biz Müsəlmanların bayram günləri və yeyib-içmə günlərimizdir." [38]

Aişə və İbn Ömərdən ﵄ gələn bu hədisə əsasən: "Təşriq günlərində heç kəsə oruc tutmağa icazə verilmir. Yalnız kəsməyə qurban tapa bilməyənlər istisnadır." [39]

FİTRƏ ZƏKATI

Buna fitrə sədəqəsi də deyilir.

Fitrə zəkatı ramazanın sona çatması ilə bağlı olduğu üçün belə deyilir. Çünki, malla əlaqəli deyildir. Məhz zimmətlə əlaqəlidir və nəfsin, bədənin zəkatıdır.

Fitrə zəkatı, Abdullah ibn Ömərin ﵄ bu rəvayətinə əsasən hər Müsəlmanın üzərinə vacibdir: "Allah Rəsulu ﷺ

Müsəlmanlardan hər bir qula və hür insana, hər bir kişi və

[36] Buxari, hədis 1991; Müslim, hədis 1138;

[37] Müslim, hədis 1141

[38] Tirmizi, hədis 773;

[39] Buxari, hədis 1997;

qadına, hər bir kiçik və böyüyə fitr zəkatını bir “sa” [40] xurma və ya bir “sa” arpa olaraq fərz buyurdu.” [41]

Fitrə zəkatı ancaq iki şərtlə vacib olur.

1-İslam. Kafirlərə vacib deyildir.

2-Bayram günü və gecəsində həm özünün həm də ailəsinin ehtiyacından artıq qalan malının mövcud olması gərəkdir.

Fitrə zəkatı Allah Rəsulundan ﷺ sabit olan səhih hədislərə əsasən ölkə əhalisinin buğda, arpa, xurma, kişmiş, düyü və digər bu kimi ərzaq məhsullarından verilir.

- Fitrə zəkatı bayram gecəsi günəşin batması ilə vacib olur. Çünki, bu vaxt ramazanın çıxdığı vaxtdır.
- Fitrə zəkatının verilmə vaxt ikidir. Fəzilətli və icazəli olan vaxtı.

Fəzilətli vaxtı. İbn Ömərdən ؓ rəvayət edilən “Allah Rəsulu ﷺ fitr zəkatını, insanların namaza getmələrindən öncə verilməsini əmr etdi” [42] hədisinə əsasən bayram günü fəcrdən, bayram namazının qılınma vaxtına qədərdir.

İcazəli vaxtı. Bayramdan bir və ya iki gün əvvəldir. Bu da İbn Ömər və digər səhabələrin ؓ belə etməklərinə görədir.

*Fitrə zəkatını bayram namazından sonraya gecikdirmək caiz deyildir. Əgər gecikdirilərsə o sədəqə hökmünə keçər və bu səbəblə günah qazanılar. Bu da Allah Rəsulunun ﷺ bu hədisinə əsasəndir: **“Kim onu namazdan əvvəl verərsə**

---

[40] Bir “sa” dörd “mud” həcminə bərabər ölçüdür. Bir “mud” isə iki əlin birlikdə tuta biləcəyi ovuc miqdarıdır.

[41] Buxari, hədis 1503; Müslim, hədis 984;

[42] Buxari, hədis 1509; Müslim, hədis 986;

bu məqbuldur, kim də onu namazdan sonra verərsə o da sədəqələrdən bir sədəqədir.” [43]

Allahın salamı Nəbimiz Muhammədin ﷺ, əhlinin və əshabının üzərinə olsun.

Kitabı oxuyub zəruri açıqlamalar edərək gözdən keçirdi, Misir tələbəsi Əbu Fatimə Ömər ibn Süleyman əl-Əsəri.

03.06.2016/26.08.1437

Bakı

[43] Əbu Davud, hədis 1609; İbn Macə, hədis 1827, həsəndir;

MÜNDƏRİCAT

ORUC 5
ORUCUN NÖVLƏRİ.. 7
ORUCU POZAN ŞEYLƏR 9
ORUCUN MÜSTƏHƏBLƏRİ 10
ORUCUN MƏKRUHLARI... 12
NAFİLƏ ORUCLAR... 12
BƏYƏNİLMƏYƏN VƏ HARAM OLAN ORUCLAR 15
FİTRƏ ZƏKATI.. 16

ORUCLA BAĞLI FİQHİ MƏSƏLƏLƏR

Allahu Təalə Ramazan ayının orucunu bu ayə ilə fərz etmişdir:
“Ey iman edənlər! Oruc sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!” [Bəqərə 183]

Oruc, İslamın beş şərtindən biridir.
Abdullah ibn Ömərdən ﵁ belə dediyi rəvayət edilir: Allah Rəsulu ﷺ belə buyurmuşdur:
“İslam beş şey üzərində qurulmuşdur. Allahdan başqa haqq ilah olmadığına və Muhamməldin Allahın Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, ramazan orucunu tutmaq və gücü çatırsa beyti həcc etmək.”

Buxari, hədis 8; Müslim, hədis 16;